# Naxçıvanda Milli Qəhrəman Yusif Mirzəyevin xatirəsi anılıb



**Mayın 23-ü Milli Qəhrəman Yusif Mirzəyevin anadan olmasının 67-ci ildönümü münasibətilə "Vətən sevdalısı igid əsgər" adlı anım tədbiri keçirilib.**

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının birgə təşkilatçılığı, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin dəstəyi ilə reallaşan tədbirdə Yusif Mirzəyevin yaxınları, şəhid ailələri və qazilər, gənclər, kursantlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar qəhrəmanın Şəhidlər Xiyabanında yerləşən məzarını ziyarət edib, ruhuna dualar oxuyublar. Ziyarət zamanı şəhidin xatirəsi ehtiramla yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb.

Naxçıvan Hərbi Kollecində reallaşan tədbirin rəsmi hissəsi Dövlət Himninin səsləndirilməsi və bir dəqiqəlik sükutla başlayıb. Ardınca Yusif Mirzəyevin qəhrəmanlıq dolu ömür yolunu əks etdirən qısa videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edənlər - Kollecin rəis müavini Hikmət Hacıyev, Nazirliyin aparat rəhbəri İlhamə Nəzərova, Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov Yusif Mirzəyevin vətənə sədaqətindən, fədakarlığından və onun gənclər üçün örnək olan mənəvi irsindən danışıblar.

Yusif Mirzəyevin bacısı Naibə Mirzəyeva, qızı Nurlana Mirzəyeva və döyüş yoldaşı Vaqif Bağırov çıxış edərək şəhidin həyatına dair şəxsi xatirələrini bölüşüb, tədbirin təşkilində əməyi keçənlərə minnətdarlıqlarını ifadə ediblər. Şəhidin qohumu Yusif Mirzəzadə isə belə tədbirlərin gənc nəslin milli ruhda tərbiyəsində mühüm rol oynadığını vurğulayıb.

Bədii hissədə müğənni Emin Hüseynovun ifasında səslənən "İgid əsgər" mahnısı, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb şagirdlərinin təqdim etdiyi vətənpərvərlik ruhlu kompozisiyalar və səhnəciklər, eləcə də kursantların iştirakı ilə formalaşan emosional atmosfer tədbirin mənəvi zənginliyini daha da artırıb. Xatirə Muzeyinin əməkdaşı Sevinc Səbzəliyevanın ifasında səsləndirilən "Burax məni çıxım gedim, axı Vətən əldən gedir" adlı monoloq isə iştirakçılarda dərin təəssürat yaradıb.

Yusif Mirzəyev 1958-ci il mayın 23-də Babək rayonunun Böyükdüz kəndində anadan olub. 1975-ci ildə İ.Səfərli adına 1 saylı məktəbi bitirib. Erməni mənfurlarının torpaqlarımıza hücumu zamanı baş verənlərə biganə qalmayan Yusif könüllü olaraq cəbhəyə yollanır.

Goranboy və Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edir. Qısa zamanda taborun ən adlı- sanlı döyüşçüsünə çevrilir. Yusif 14 nəfərlik dəstə ilə əksər döyüşlərdə iştirak edir. Təhlükəli olduğu üçün tabora Ağdərə istiqamətində çıxmaq əmri verilsə də, 14 nəfərlik döyüşçü ilə Yusif elə bir vəziyyət yaradır ki, düşmən tərəf Ağdərədə böyük bir batalyon olduğunu düşünür. Ancaq böyrəklərindəki xəstəlik şiddətləndikdən sonra onu bir müddət müalicə almağa razı sala bilirlər. O, Şəmistan Əlizamanlı ilə bir otaqda müalicə alır. Onun vəziyyətini yaxından izləyən həkimi Yusif üçün bir mahnı yazır. Dinlədikdən sonra mahnını çox bəyənən Mirzəyevə Şəmistan Əlizamanlı mahnını ifa edəcəyinə və ona həsr edəcəyinə söz verir. Daha sonra Yusif müalicəsini yarımçıq saxlayır və yenidən cəbhəyə yollanır.

"Bilirəm canım əldən gedir, ancaq vətən də əldən gedir", deyə orada qalıb müalicəsini davam etdirmir.

Bakıda Yusifə müxtəlif vəzifələr təklif edilsə də, o, razı olmur. 1993-cü il 19 fevralda Ağdərədə mühasirəyə düşmüş əsgərləri xilas etməyə çalışarkən özü şəhid olur. Ölümündən sonra, o, Naxçıvan şəhərinin Şəhidlər xiyabanında dəfn edilib.

Həmin ilin martında Yusif Mirzəyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilir.

Şəmistan Əlizamanlı isə söz verdiyi "İgid Əsgər" mahnısını ifa edərək Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr edir.




Yusif Mirzəyevin Naxçıvan şəhərində büstü qoyulub. Bakının Nəsimi rayonundakı 44 saylı məktəbə qəhrəmanımızın adı verilib, qarşısında büstü qoyulub.

***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
***Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi***